“Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi haqqında”

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun

Q Ə R A R I

“ 30 ” oktyabr 2026-cı il № 16 Bakı şəhəri

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarının qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılması məqsədilə “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-cu maddəsini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

QƏRARA ALIR:

1. “Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2003-cü il 25 iyun tarixli 4 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənd üzrə:

1.1.1. birinci abzasda “Cinayət Məcəlləsinin” sözləri “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM)” sözləri ilə əvəz edilsin;

1.1.2. beşinci abzasda “Azərbaycan Respublikası CPM-in” sözləri “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM)” sözləri ilə əvəz edilsin.

1.2. 3-1-ci bənd üzrə:

1.2.1. ikinci abzasın birinci cümləsində “Cəzaların İcrası Məcəlləsinin” sözləri “Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – CİM)” sözləri ilə əvəz edilsin;

1.2.2. ikinci abzasın ikinci cümləsində “Cəzaların İcrası Məcəlləsinin” sözləri “CİM-in” sözü ilə əvəz edilsin.

1.3. 4-cü bəndin ikinci abzasında “edilməsi haqqında” sözləri “edilməsinə dair” sözləri ilə əvəz edilsin.

1.4. 7-ci bəndin beşinci abzasında “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərh olunmasına dair” sözləri “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.2-ci maddəsinin şərh olunmasına dair” sözləri ilə əvəz edilsin.

1.5. 8-ci bənd üzrə:

1.5.1. birinci abzasın birinci cümləsində “Cinayət Məcəlləsinin” sözləri “həmin Məcəllənin” sözləri ilə əvəz edilsin;

1.5.2. altıncı abzasda “53-cü” sözləri “52-1-ci” sözləri ilə əvəz edilsin.

1.6. 21-ci bəndin dördüncü abzasının ikinci cümləsində “Sərhəd Qoşunları” sözləri “Sərhəd mühafizə orqanları” sözləri ilə əvəz edilsin.

1.7. 22-ci bəndin birinci abzasında “məhkəmə icraçısı” sözləri “icra məmuru” sözləri ilə və həmin abzasda “Cəzaların İcrası Məcəlləsinin” sözləri “CİM-in” sözləri ilə əvəz edilsin.

2. “Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2013-cü il 15 noyabr tarixli 5 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü bəndin ikinci abzasında və 5-ci bəndin ikinci abzasında “, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə” sözləri “və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə” sözləri ilə əvəz edilsin.

2.2. 8-ci bənd üzrə:

2.2.1. birinci abzasın birinci cümləsində “, xüsusi və ya hərbi nəqliyyat maşınlarını idarəetmə” sözləri “və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə” sözləri ilə əvəz edilsin;

2.2.2. ikinci abzasda “, xüsusi və ya hərbi nəqliyyat maşınlarını” sözləri “və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı” sözləri ilə əvəz edilsin.

2.3. 11-ci bəndin birinci cümləsində “, xüsusi və ya hərbi nəqliyyat maşınlarının” sözləri “və ya xüsusi təyinatlı nəqliyyat vasitələrinin, yaxud hərbi texnikanın” sözləri ilə əvəz edilsin.

2.4. 19-cu bəndin ikinci abzasının ikinci cümləsində “Dövlət məhkəmə” sözləri “Məhkəmə” sözü ilə, “15 yanvar 2000-ci il, 30 iyul 2001-ci il və 15 oktyabr 2011-ci il tarixli Fərmanlarına” sözləri “2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanına” sözləri ilə və həmin cümlədə “Azərbaycan Respublikasının Ədliyyə və Səhiyyə nazirliklərinin” sözləri “müvafiq dövlət orqanlarının” sözləri ilə əvəz edilsin.

2.5. 23-cü bəndin birinci abzasının ikinci cümləsində “Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – CİM) 157.2-ci” sözləri “CM-in 45.2-ci” sözləri ilə əvəz edilsin.

2.6. 25-ci bənd üzrə:

2.6.1. birinci abzasın ikinci cümləsində “9-cu” sözü “doqquzuncu” sözü ilə əvəz edilsin;

2.6.2. üçüncü abzasın ikinci cümləsində “bu Məcəllənin 1116.2 və 1116.3-cü maddələrində nəzərdə tutulan” sözləri “mülki qanunvericilik ilə müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

3. “Məhkəmə hökmü haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2021-ci il 24 dekabr tarixli 15 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5-ci bənd üzrə:

3.1.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“Məhkəmə icraatının elektron qaydada aparılması üzrə məsələləri tənzimləyən CPM-in 51-3-cü maddəsinə müvafiq olaraq qəbul edilən hökm və ya məhkəmənin digər yekun qərarı elektron sənəd formasında tərtib edilərək, CPM-in 358-ci maddəsi ilə müəyyən edilmiş üç gün müddətində “Elektron məhkəmə” informasiya sistemində yerləşdirilməlidir.”;

3.1.2. ikinci abzasda “51-1.12-ci” sözləri “51-3.12-ci” sözləri ilə əvəz edilsin.

3.2. 12-ci bəndin 6-cı abzasının ikinci cümləsində “51-2-ci” sözləri “51-4-cü” sözləri ilə əvəz edilsin.

3.3. 29-cu bəndin ikinci cümləsində “CM-in” sözündən sonra “müvafiq” sözü əlavə edilsin.

3.4. 71-ci bənddə “2008-ci il 3 noyabr tarixli “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” sözləri “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” 2025-ci il 24 dekabr tarixli 20 nömrəli” sözləri ilə əvəz edilsin.

3.5. 77-ci bəndin üçüncü abzasının ikinci cümləsindən “pul və ya” sözləri çıxarılsın.

3.6. 78-ci bəndin ikinci abzasının birinci cümləsində “2017-ci il 13 iyun tarixli” sözləri “2019-cu il 9 iyul tarixli 1639-VQD nömrəli” sözləri ilə əvəz edilsin və həmin abzasın ikinci cümləsinə “tarixli” sözündən sonra “1638-VQD nömrəli” sözləri əlavə edilsin.

3.7. 81-ci bəndin ikinci abzasının birinci cümləsinə “ilə” bağlayıcısından sonra “əldə” sözü əlavə edilsin, həmin cümlədən “pul və” sözləri, habelə hər iki halda “pul vəsaitləri və ya digər” sözləri çıxarılsın.

Azərbaycan Respublikası
Ali Məhkəməsinin sədri **İnam Kərimov**